# YAŞAMIN POETİK SƏSİ

İstedadların özünü təqdimatı öz səslərindən, nəfəslərindən başlanır; yazıya gətirə bildikləri hisslərin, duyğuların təbiiliyindən, səmimiliyindən görünür.

Təhminə Verdiyevanın "Sevgimin səsi" kitabının ilk səhifələrindəncə onun ürək çırpıntılarını, əgər belə demək mümkünsə, qəlbinin səsini təkcə duymaq yox, həm də eşitmək olur. Ünvanı məlumdur. Gənc aşiqin sözdə duyğulanan yaşamı onun həyatında iz buraxan sevgisinin səsi ilə misralara çevrilir və insanlığın üstünə göndərilir. Bəlkə də gənc müəllif cəmiyyətin ürək tıncıxmasını, sevgisizlikdən yaranan hava çatışmazlığını duyur. Bəlkə elə buna görə səsini nəfəs kimi, hava kimi insanlara çatdırmaq istəyir.

İstəsən sadəcə danışaq, gülək,
Qeydimizə qalsın bizim məhəbbət.
İstərsən hicrandan beləcə ölək,
İkimizə qalib gəlsin bu həsrət.

Oxucu inanmaq istəyir gənc müəllifin yaşamından gələn bu təəssürata. Çünki bu duyğuları yaşamadan, bu nigaranlığı çəkmədən onu sözə gətirmək çətin olardı. Yaxud, müəllif "Səninlədir ümidlərim, Sənsiz keçməz heç günlərim, Əlindən tutsun əllərim, Nə yaxşı ki, sən varsan" deyirsə, demək, onun cəmiyyətdə mənəvi istinadgahı var. O, inamlıdır. İnamlı olmasaydı, sevdiyinə gileyli duyğularını belə yumşaq, belə ümidli misralarla ifadə edə bilməzdi.

Laqeyd deyilsən, yox, məsafəm uzaq,
Qəlblər bir olsa da, həsrət çəkirəm.
Demək istədiyim söz qalaq-qalaq,
Ürəyimdə bir-bir cümlə əkirəm.

Yəni, öz xoşuna yazmır. Əslində onu yazmağa vadar edən və daxilən onun qəlbində yaşayaraq, ona inamlı olmağı xəlvət-xəlvət, asta-asta pıçıldayan sevgisidir.

Hətta bəzən sevdiyinin yolu axıracan gedə biləcəyinə şübhələr də qəlbində baş qaldırır. Amma bu zaman artıq onun həyatının mənasına çevrilmiş sevgisini ana balasını əzizləyən kimi sinəsinə sıxır və özündən kənara buraxmaq istəmir: "Sənə söyləyirəm öz yolunla get, Könlümdən sevgini heç qoparma sən". Beləcə, öz eşqinin yolunda inamlıdır. Bu sevgi ilə o, həyatını daha zəngin, daha məmnun görür.

Müdriklər eşqə qədər yüksəlməyin yolunun istəkdən başlandığını deyir. Əlbəttə, istək sevgiyə çevrilir. Sevgi rişələndikcə, ruhlara, duyğulara hakim kəsildikcə sevənləri yandırıb-yaxan məhəbbət olur. Və elə bir zaman gəlir ki, iki aşiq bir canda birləşir. Bu qovuşma eşqi təmin edir. İnsan eşqin ucalığında kamilliyinə çatır.

Təhminə hətta sevdiyinin onunla birgə eşq mərtəbəsində eşq ucalığına qalxa bilməməsini təəssüflə sözə gətirsə də, bundan ümidlərinin qırılacağı qədər qəmlənmir. Çünki eşq artıq onun varlığına hakimdir və bu eşqlə o, axıracan yaşaya bilmək inamındadır.

Ən gözəl xəyalları mən səninlə yaşamaq,
Beləcə həyatımı paylaşmaq istəyirəm.
Gözlərində var olub bu dünyaya alışmaq,
Xoşbəxtliyin ardınca mən qaçmaq istəyirəm.

Beləcə, o öz eşqi ilə lap baş-başa qalsa belə, yaşamından məmnundur.

Təhminə Verdiyeva hələ kifayət qədər gəncdir. Onun sevgisi, zənnimcə, düşüncəsi ilə, təfəkkürü ilə, poetik nəfəsi ilə kamilləşəcək, insanlığa sevgidə necə sabit-qədəm olmağın yolunu və gücünü göstərə biləcək. O qətiyyən düşünmür ki, hansısa bir dumanlı ümid ona yardım edəcək. O, bu yolda ən yaxşı yardımı özünün dözümündən gözləyir. Və demək, inama söykənir. O, inamı ümidindən daha cəsarətli hesab edir.

Mənə elə gəldi ki, Təhminə Yesenini və ümumiyyətlə, lirikada səmimi sevgi duyğularını, hisslərini, bir sözlə, yaşamın özünü tərənnüm edən şairləri çox oxuyur. Bəlkə elə buna görədir ki, onun şeirlərində Yeseninsayağı bir səmimiyyət açıq-aşkar özünü diktə edir.

Mən salam söylərəm gələn sevincə,
Sevgimə sadiqəm, inan, ölüncə,
Həyata yolçuluq etdim beləcə...

Zənnimcə, bu üç misranın içində bitkin bir hekayət var. Çünki öz sevgisinə sadiq olan lirik mən hər gələn sevinci həyatının bir sabahı hesab edir və onu qəlbən, sevinərək salamlayır. Başqa sözlə, qəlbində yaşatdığı sevgisindən qidalanır. Onu mənəvi aclığın təhlükəsindən qoruyacaq həyat eşqinin dəyərini uca tutur.

Ayrı-ayrı şeirlərinin adlarını çəkmək olar: "İncitməz", "Eşq dünyasında", "Bu köhnə dünyanın", "Fədakarlıq etdim", "Ümidlə", "Zamana addımlayaq", "İlk sözüm", "Vida etmərəm" kimi şeirlərin hər birində sevgi ilə yaşayan, həyata inamla baxan və sabaha doğru cəsarətli addımlarla yeriyə bilən bir gəncin duyğuları ilə, poetik səsi ilə tanış oluruq. Bu nəfəs, bu səs bizi inandırır ki, texno həyat insanların həyatına nə qədər müdaxilə etsə də, süni intellekt təbii insan hissləri ilə rəqabətə girsə də, həqiqi insan duyğularına qalib gələ bilməz. Əslində elə şairliyin missiyası da budur ki, insanı insanlıqdan çıxmağa qoymasın. Daim insana insan olduğunu diktə etsin.

İnsan sevgisi ilə insanlığa sadiqliyini qoruya bilər. Zənnimcə, Təhminənin şeirlərindəki inam, ümid, zaman, məkan obrazları yaz ağzı çırtlayan tumurcuqlar kimi gəl-gəl deyir. Çırpınan tumurcuqlar baharın gəlişindən xəbər verir. Təhminənin şeirlərindəki duyğuların da səmimiliyi mənəvi həyatımıza sözündə özü ilə, özündə sözü ilə gələn yeni bir poetik nəfəsdən xəbər verir.

Əlbəttə, gənc qələm sahibinin şeirlərindəki



kəm-kəsirləri, bəlkə çox vaxt texniki çatışmazlıq kimi görünənləri də danmaq olmaz. Mən düşünürəm ki, əgər şeir təbii hissləri və duyğuları əks etdirirsə, o, insanların mənəvi mühitinə təsirsiz ötüşə bilməz.

Təhminə öz hissləri ilə baş-başa qala bilir. Xəyalları ilə dilləşir. Zənnimcə, xəyalları ilə danışmaq onun tənhalığa gedən yolundan təksəsliyə doğru səsləyir. Bu təksəslik əslində orijinallıqdır. Yəni, özgəsinin hisslərini təsvir etmək yox, öz hisslərini yazıya gətirməkdir. Mən bu məqamda Təhminə Rafiqqızının ədəbi təxəllüsünü "Təksəs" kimi gördüyümü buradaca qeyd edirəm. Çox ola bilər ki, gələcəkdə müəllif yeni kitablarında bu təksəsliyin mahiyyətini daha yaxşı dərk edəcək. Və özü də Təhminə Rafiqqızından Təhminə Təksəsliyə gedən yolda özünü daha dolğun tapacaq. Onun düşüncəsinə görə (bu, əlbəttə, təbii yaşam hissidir) sevənlərin eşqi hər vaxt qüsursuzdur. Bütün duyğulanmalarda hisslər ləkəsizdir. Dünyanın qara rənglərindən çox ucadadır. Zənnimcə, onun təbii hisslərini ifadə edən misralarını oxumaq dediklərimizin nə qədər əsaslı olduğuna inandırıcı təsir göstərər.

Qüsursuz eşq vardır sevgi yolunda,
Ölçüsü də yoxdur belə biləsən.
Zaman ümid olmuş bu həyatında,
Səbir yol açıb ki, qəlbdən sevəsən.

Eşqin məqamı var, o da ürəkdə,
Beləcə yaşayıb sonunu gözlər.
Qovuşmaq sevdası tutar diləkdə,
Qəlbində kiçik bir xoşbəxtlik yetər.

Doğru deyir. Eşqin məkanı var. Bu məkan sevənlərin ürəyidir. Hansı qəlbdə, hansı könüldə eşq duyğuları məkan salırsa, orada insancığazlara aid olan xırdalıqlara yer qalmır. Sevgilər insanlığı həmişə ucalığa çəkir, paklığa çağırır. Bir sözlə, sevgi yolunda fədakarlıq elə sevgiyə sədaqətin təsdiqidir. O, sevgisini qorumaq, sevgisinin ona bəxş etdiyi sağlam, saf duyğularla yaşamaqdan xüsusi zövq alır. Zənnimcə, elə onun misraları da bunu deyir.

Qoymaram qəlbimdən mən çıxartmağa,
Könlümdə yuvasın qurmuş, yaşamış,
Heç razı olmaz ki, eşqi atmağa,
Xəyallarım belə eşqə bulaşmış.

Mənə maraqlıdır, necə sevdiyim?
Könül yuvasında heç xoşbəxtdirmi?
Həyatını başdan sona bildiyim,
Qəlbin sevdasında heç xoşbəxtdirmi?

O, öz sevgisi üzərində poetik tədqiqat da aparır. Necə sevdiyini yaddaşında təzədən bərpa etməyə çalışır. İlk sevgi duyğuları onun qəlbinə harada, nə vaxt yol tapıb?! Və bu barədə düşünə-düşünə özünün xəyalları ilə yaşayır və yeni sevgi notlarını misralara çevirir.

Kitabda sonuncu şeir "Bilsəydim" adlanır. Əl-




bəttə, bu şeir də "Gül düzərəm" və "Xəyallarım" adlı şeirlərdən sonra gəlib. Kimsə yaxşı deyib; "Saçlarına gül düzüm, mənim günüm, gündüzüm". Mənə elə gəldi ki, "Gül düzərəm" şeirinin doğuluşunda sevgini güllə mükafatlandırmaq motivi də görünür. Yaxud, insan gələcək həyatını əvvəlcə xəyalları ilə qurur. Xəyallar sanki insan taleyinin bir proqramı kimi düşüncədə yaranır. Və insanın qalan ömrü bu xəyalları reallaşdırmaq, həyata keçirmək yolu keçir.

Nəhayət, sevdiyinə gül düzməyin sevincini yaşaya-yaşaya, xəyalları ilə həyatının yolunu araya-araya müəllif "Bilsəydim" şeirində belə bir qənaətə gəlir:

Bilsəydim, yel əsib, duman çökəndən,
Yarımçıq qalacaq hər arzu-dilək,
Sənin nəfəsini hiss edirəm mən,
Sahildən bu yana əsəndə külək.

Demək, ömür yaşanmış hisslərini, duyğularını heç vaxtdan yaddaşdan silmir. İzlər qalır. Və insan hərdən bu izlərə baxıb nəyin düz, nəyin səhv olduğunu da anlaya bilir. Bütün bunları Təhminə Verdiyevanın "Sevgimin səsi" kitabının özü deyir.

Yaşamın poetik nəfəsi, bir gəncin mənəvi mühitinin şeirlərlə gələn səsi... kim bu nəfəsi duysa, bu səsi eşitsə, onun qəlbinə, mənəvi mühitinə bir yaz havası gələr, həyat sevdası gələr. Təhminə günümüzə, həyatımıza sevgi nəğmələri oxuyur.

***Əli RZA***
***31.01.2025***